

# Regional inkişaf və birgə fəaliyyət modeli

***Azərbaycan müstəqilliyini bərpa etdiyi 1991-ci ildən etibarən beynəlxalq münasibətlər sistemində fəal şəkildə iştirak edir, müxtəlif təşkilatlarla əlaqələr inkişaf tempi ilə artırılır. Bu prosesdə İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT/ECO) ilə qurulan əməkdaşlıq xüsusi yer tutur. Ölkəmizin həm regional, həm də qlobal miqyasda nüfuzunun artmasında bu təşkilat çərçivəsində həyata keçirilən çoxşaxəli fəaliyyət mühüm rol oynayıb.***

İqtisadi Əməkdaşlıq Təşkilatı 1985-ci ildə Türkiyə, İran və Pakistanın təşəbbüsü ilə iqtisadi, texnoloji və mədəni sahələrdə əməkdaşlığı dərinləşdirmək məqsədilə yaradılıb. Bu qurum 1964-1979-cu illərdə fəaliyyət göstərmiş Regional Əməkdaşlıq və İnkişaf Təşkilatının varisi hesab olunur. 1992-ci il noyabrın 28-də Azərbaycanla yanaşı, Əfqanıstan, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkmənistan və Özbəkistanın da təşkilata qoşulması ilə üzv dövlətlərin sayı 10-a çatıb və həmin gün "İƏT günü" kimi qeyd olunur.

Azərbaycan İƏT-lə əməkdaşlığa xüsusi əhəmiyyət verir və bu platformada fəal mövqe tutur. Ölkəmiz 2006 və 2012-ci illərdə təşkilatın Zirvə görüşlərinə, 2024-cü ildə isə 1-ci Tur Operatorları Forumu və 3-cü Beyin Mərkəzləri Forumuna ev sahibliyi edib. Hazırda isə İƏT-in 17-ci sammiti Xankəndidə keçiriləcək. Rəsmi Bakının tez-tez bu cür tədbirlərə ev sahibliyi etməsi Azərbaycanın təşkilat daxilindəki nüfuzunun artdığını sübut edir. 2024-cü ilin noyabrında Bakıda BMT-nin Sənaye İnkişafı Təşkilatı (UNIDO) ilə birgə "Təmiz Enerji Mərkəzi"nin açılması Azərbaycanın "yaşıl enerji" sahəsində liderliyini bir daha ortaya qoyur.

Ümummilli lider Heydər Əliyev 1996-cı ildə Aşqabadda keçirilmiş İƏT-in IV sammitinə qatılıb, nəqliyyat və kommunikasiya sahələrini əhatə edən inkişaf proqramının qəbulunda iştirak edib. Ulu öndər 2002-ci ildə İstanbul sammitində İƏT Tədqiqat Mərkəzinin Bakıda yaradılması təşəbbüsü ilə çıxış edib, bu ideya illər sonra Prezident İlham Əliyevin dəstəyi ilə reallaşaraq 2021-ci ildə rəsmiləşdirilib. Tədqiqat Mərkəzinin yaradılması Azərbaycanın regional əməkdaşlığa yalnız siyasi deyil, həm də elmi əsaslarla yanaşdığını göstərir. Mərkəzin missiyası iqtisadi təhlil əsasında əməkdaşlığı inkişaf etdirmək və strateji qərarların qəbuluna dəstək verməkdir.

Azərbaycanın zəngin enerji ehtiyatları və əlverişli coğrafi mövqeyi onu İƏT coğrafiyasında önəmli enerji və tranzit mərkəzinə çevirib. Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz xətti və Cənub Qaz Dəhlizi kimi layihələr yalnız Azərbaycanın deyil, bütövlükdə regionun enerji təhlükəsizliyi üçün həyati əhəmiyyət daşıyır. Bundan əlavə, ölkəmiz həm Şimal-Cənub, həm də Şərq-Qərb nəqliyyat dəhlizlərində fəal iştirak edərək Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu və Orta Dəhliz kimi təşəbbüslərdə əsas aktordur. Bu infrastruktur layihələri sayəsində Azərbaycan Avropa ilə Asiya arasında mühüm iqtisadi körpüyə çevrilib. Azərbaycan son illərdə "yaşıl enerji"yə keçid sahəsində mühüm addımlar atmış və bu sahədə də liderliyini nümayiş etdirmişdir. Qazaxıstan və Özbəkistanla enerji sistemlərinin inteqrasiyasına dair imzalanmış sənədlər alternativ enerji mənbələrinin birgə istifadəsinə xidmət edir. Bu təşəbbüslər Azərbaycanın regional enerji siyasətində qabaqcıl mövqeyini gücləndirir.

Azərbaycanın İƏT-ə üzv dövlətlərlə ticarət əlaqələri son illərdə əhəmiyyətli dərəcədə artıb. 2024-cü ilin məlumatlarına əsasən, Türkiyə ilə ticarət dövriyyəsi 7,9 milyard dollardan çox olmuş və bu, ümumi İƏT ticarətinin 77 faizini təşkil edib. İranla ticarət həcmi 647 milyon, Qazaxıstanla 470 milyon, Türkmənistanla 384 milyon, Özbəkistanla isə 252 milyon dollara çatıb. Digər ölkələrlə - Pakistan, Tacikistan, Qırğızıstan və Əfqanıstanla əlaqələr məhdud olsa da, burada artım potensialı böyükdür. Bu ölkələrdəki zəngin təbii resurslar - xüsusilə Əfqanıstanın litium, Tacikistanın qızıl və civə, Qırğızıstanın isə polimetal ehtiyatları - gələcək əməkdaşlıq üçün böyük imkanlar yaradır. Bu potensialdan tam istifadə etmək üçün nəqliyyat infrastrukturunun inkişafı və qarşılıqlı investisiyaların artırılması vacibdir. Hazırda Azərbaycanın İƏT region ölkələri ilə xarici ticarət dövriyyəsinin həcmi 8 milyard dollardır. Bu da cəmi ticarət dövriyyəsinin təxminən 17 faizi deməkdir.

Azərbaycan İƏT-in fəal üzvüdür və bu təşkilata üzv ölkələrlə münasibətlər dostluq, qarşılıqlı hörmət və strateji tərəfdaşlıq prinsiplərinə əsaslanır. Bu münasibətlər yalnız İƏT çərçivəsində deyil, həm də İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatı kimi digər beynəlxalq platformalarda da davam etdirilir. Azərbaycanın İqtisadi Əməkdaşlıq Təşkilatındakı fəaliyyəti ölkənin regional əməkdaşlıq strategiyasının ayrılmaz hissəsidir. İƏT çərçivəsində həyata keçirilən layihələr və təşəbbüslər Azərbaycanın beynəlxalq nüfuzunun artmasına, iqtisadi mövqeyinin möhkəmlənməsinə və davamlı inkişafına xidmət edir. Gələcəkdə bu əməkdaşlığın daha da dərinləşməsi və yeni iqtisadi inteqrasiya imkanlarının reallaşması üçün ciddi potensial mövcuddur.

**Musa BAĞIRLI,**
**"Respublika".**

Respublika .- 2025.- 3 iyul (№ 133).-